# AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

**Təsdiq edirəm:**

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru

____________Prof. Cəfər Cəfərov

"_27_" "_Fevral_" 2024-cü il

Azərbaycan Dövlət Pedaqoji Universitetinin

Elmi şurasının 27 fevral 2024-cü il tarixli

iclasının qərarı ilə (protokol № 5)

qəbul edilmişdir.

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**

**Dayanıqlı İnkişaf Siyasəti Sənədi**

AZƏRBAYCAN – 2030: "Minilliyin İnkişaf Məqsədlərindən Dayanıqli İnkişaf Məqsədlərinə Doğru" siyasət sənədinə uyğun olaraq Azərbaycan Dövlət Pedaqoji Universiteti aşağıdakı dayanıqlı istiqamətlərini dəstəkləyir, öz strategiya və məqsədlərində bu istiqamətlərdə tövhə verməyə çalışır.

- yoxsulluğun aradan qaldırılması siyasətini
- keyfiyyətli təhsilə çıxışı
- gender bərabərliyini
- sərfəli və təmiz enerji istifadəsini
- məqsədlər üçün tərəfdaşlığı və s.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamından irəli gələn vəzifələrin həlli istiqamətində Azərbaycan Dövlət Pedaqoji Universiteti (ADPU) təhsil və elmi-tədqiqat fəaliyyətində davamlı inkişaf və ətraf mühitin mühafizəsi prinsiplərinin qəbul edilməsinə və həyata keçirilməsinə sadiqdir. Bu öhdəliyə uyğun olaraq, ADPU davamlı gələcəyə töhfə vermək üçün aşağıdakı siyasətə sadiq qalır.

**Məqsəd**

- *Ətraf mühitə təsirin azaldılması.* Enerji və su istehlakını azaltmaq, tullantıların istehsalını minimuma endirmək və təkrar emalı təşviq etmək üçün əməli tədbirlər həyata keçirmək.
- *Təhsil və tədqiqatda davamlılığın təşviqi.* Dayanqlı inkişaf və ətraf mühitin mühafizəsi ilə bağlı fakültətiv məşğələlərin tədris proqramına daxil edilməsinə və bu sahədə tədqiqatların təşviqinə nail olmaq.
- *Kağız israfının azaldılması.* Kağız istifadəsində qənaətcillik prinsipinin əsas götürülməsi.
- *Tələbə kampusunda davamlılığın təmin olunması.* Kampusun dayanıqlılığını təmin etmək üçün ekozonaların artırılması, alternativ enerji mənbələrindən istifadə və dayanıqlı resursların istifadəsinin təşviqi kimi addımlar atmaq.
- *Maraqlı tərəflərlə əməkdaşlıq*. Dayanıqlılıq məqsədlərinə nail olmaq üçün tələbələr, işçilər, qeyri-kommersiya təşkilatları və digər maraqlı tərəflərlə əməkdaşlıq etmək.

**Strategiyalar**

- *Davamlılıq Komissiyasının yaradılması.* ADPU dayanıqlılıq siyasətinin işlənib hazırlanması və həyata keçirilməsinə cavabdeh olan komissiyanın yaradılması.

- *Davamlı inkişaf üzrə təhsil və maarifləndirmə.* Bütün maraqlı tərəflər üçün dayanıqlılıq təhsili və məlumatlılığın artırılması proqramlarının təşkil edilməsi.
- *Davamlı kampus təşəbbüsləri.* Müxtəlif dayanıqlı kampus təşəbbüslərini həyata keçirmək, o cümlədən enerjiyə qənaət etmək üçün LED lampalarından və bina avtomatlaşdırma sistemlərindən istifadə edilməsi. Suya qənaət etmək üçün aşağı təzyiqli axın qurğularının tətbiq edilməsi. Tullantıların israfını azaltmaq üçün təkrar emal proqramlarına başlamaq. Yaşıl ərazilərin inkişafı və biomüxtəlifliyin qorunması.
- *Tədqiqat və innovasiya.* Dayanıqlı inkişaf və ətraf mühitin mühafizəsi ilə bağlı tədqiqat və innovasiyaların təşviq edilməsi.
- *Maraqlı tərəflərin iştirakı.* Dayanıqlılıq siyasətinin hazırlanması və həyata keçirilməsində bütün maraqlı tərəflərin iştirakının təmin edilməsi.

**Hədəflər və göstəricilər:**

ADPU dayanıqlılıq siyasətinin uğurunu ölçmək üçün aşağıdakı məqsədləri və göstəriciləri müəyyən etmişdir:

- 2025-ci ilə qədər enerji istehlakını 5% azaltmaq.

Göstərici: İllik enerji istehlakı.

- 2025-ci ilə qədər su istehlakını 3% azaltmaq.

Göstərici: İllik su istehlakı.

- Kurikulumda dayanıqlı inkişaf və ətraf mühitin mühafizəsi ilə bağlı maarifləndirici kursların payını 2025-ci ilə qədər 10%-ə çatdırmaq.

Göstərici: Kurikulumda dayanıqlılıqla bağlı kursların payı.

- 2025-ci ilə qədər dayanıqlı inkişaf və ətraf mühitin mühafizəsi ilə bağlı tədqiqat layihələrinin sayını artırmaq.

Göstərici: İllik dayanıqlılıq tədqiqat layihələrinin sayı.

**Maliyyələşdirmə:**

ADPU dayanıqlılıq siyasətinin həyata keçirilməsi üçün lazımi maliyyələşmə aşağıdakı mənbələrdən təmin ediləcək:

- *Universitet büdcəsi.* ADPU-nun dayanıqlılıq təşəbbüsləri üçün illik büdcədən vəsait ayırması nəzərdə tutulur.
- *Qrantlar və layihələr.* Qrantlar və layihələrdən gələn vəsaitin bir hissəsinin ayrılması.